UOT 37.01.

***Rəbiyə Əli qızı Qəniyeva,***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ XI SİNİF ŞAGİRDLƏRİNDƏ İDRAK FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ

***Рабия Али гызы Ганиева,***
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# РАЗВИТИЕ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ УЧАЩИХСЯ 11 КЛАССА В ПРОЦЕССЕ ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

***Rabiya Ali Qaniyeva,***
*doctorial student in the proqramme of a Ph.D*
*Ganja State Univercity*

# THE DEVELOPMENT OF COGNITIVE ACTIVITY OF STUDENTS IN GRADE 11 IN THE PROCESS OF TEACHING ENGLISH

**Xülasə.** İngilis dilinin tədrisinin mühüm vəzifələrindən biri mədəniyyətlərarası kommunikasiyada iştirak etməyə qabil olan və iştirak etmək istəyən şagird şəxsiyyətinin inkişaf etdirilməsidir. Bu vəzifəni həll etmək üçün şagirdi cəlb etmək, onda fənnə maraq oyatmaq lazımdır. Təhsilin müasir mərhələsində idrak fəaliyyəti mühüm komponent roluna malikdir. İngilis dilinin tədrisi zamanı şagirdlərdə idrak motivlərini inkişaf etdirmək üçün müxtəlif metod və priyomlardan istifadə oluna bilər. Bu metod və priyomlar zəngin idrak motivlərinin inkişafına imkan verir.

***Açar sözlər:*** *ingilis dili, ingilis dilinin tədrisi, XI sinif şagirdi, idrak, idrak fəallığı, şagirdlərin idrak fəallığı, idrak fəallığının formalaşdırılması*

**Резюме.** Важнейшей задачей обучения английскому языку является развитие личности школьника, способной и желающей участвовать в межкультурной коммуникации, развитие творческих способностей. Чтобы решить эту задачу, необходимо увлечь ученика, заинтересовать предметом. Познавательная деятельность в современной системе образования становится важнейшим компонентом. Для развития познавательных мотивов учащихся при изучении английского языка могут быть использованы различные методы и приёмы. Эти методы и приёмы способствуют развитию широких познавательных мотивов.

***Ключевые слова:*** *английский язык, преподавание английского языка, ученик 11-го класса, познание, познавательная активность, познавательная активность учащихся, формирование познавательной активности*

**Summary.** The most important task of teaching English is the development of the personality of the student, who is able and willing to participate in intercultural communication, the development of creative abilities. To solve this problem, it is necessary to captivate the student, to interest the subject. Cognitive activity in the modern education system is becoming an essential component. For the development of cognitive motives of students in the study of English can be used various methods and techniques. These methods and techniques contribute to the development of broad cognitive motives.

***Keywords:*** *English, teaching English, pupil of the 11th grade, cognition, cognitive activity, students' cognitive activity, the formation of cognitive activity*

Yeni pedaqoji təfəkkür şəraitində məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin təhsil-tərbiyə işlərinə yanaşmada mümkün qədər onların şəxsiyyətinin, təfəkkürünün, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi ön plana çəkilir. Bu, yaxşı haldır. Səmərəliliyə nail olmaq üçün tədrisin optimal priyom və metodlarının axtarışı tələb olunur.

Təhsilin məqsədinə uyğun olaraq onun (təhsilin) vəzifələri də yenilənir, təkmilləşir. Respublikamızın təhsilinin modernləşdiriıməsi vəzifəsinə əsasən Azərbaycan təhsil siyasətinin başlıca vəzifəsi ondan ibarətdir ki, təhsilin fundamentallığını saxlamaqla, şəxsiyyətin, cəmiyyətin və dövlətin aktual və perspektiv tələbatlarına rəğmən təhsilin keyfiyyəti təmin edilsin. Təhsilin modernləşdirilməsi siyasi və ümummilli vəzifədir, o, təsisat layihəsi kimi həyata keçirilə bilməz və keçirilməməlidir. Təhsilin modernləşdirilməsinin məqsədi təhsil sisteminin uğurlu inkişafı mexanizminin yaradılmasından ibarətdir (1).

Təhsilin modernləşdirilməsinin strateji məqsədinə daimi olaraq milli iqtisadiyyatın, elmin, mədəniyyətin, səhiyyənin, bütün maraqlı təşkilatların və ictimai təşkilatların nümayəndələri ilə, valideynlər və iş adamları ilə qarşılıqlı fəaliyyət prosesində nail olmaq mümkündür.

Belə şəxsiyyətin ahəngdar inkişafı idrak marağını yaratmadan və idrak marağı əsasında idrak fəallığı formalaşdırmadan, təbii ki, lazımi səviyyədə həyata keçirilə bilməz.

Xarici dil, o cümlədən ingilis dili qarşısında həm dilin təlimini, həm də ünsiyyətin yaradılması prosesini özündə birləşdirən səciyyəvi fəndir. Ünsiyyətdə başlıca və daha çətin məqam – psixoloji əlaqənin, ünsiyyət üzrə tərəf müqabili ilə qarşılıqlı anlamanın bərqərar olunmasını təmin etməkdir. Layihə metodu, rollu oyun, diskussiya, habelə qeyri-standart dərslərin keçirilməsilə şagirdin fərdiyyətini ortaya qoymaq üçün əlverişli imkan meydana gəlir.

İnnovasiyalardan istifadə etməklə ingilis dili dərslərinin səmərəliliyini yüksəltmək, məşğələlərin optimallaşdırılmasına nail olmaq mümkündür. Vərdişlərin formalaşdırılması zamanı leksik-qrammatik materialın aydın başa düşülməsindən ötrü kollektiv işə diqqətin yetirilməsi məsləhətdir. Bu məqsədlə "Mastery learning" (təkmilləşmə səviyyəsinə qədər öyrənmə) strukturundan faydalanmaq olar. Bu strukturun məqsədi növbəti mərhələyə keçməzdən əvvəl bütün yuxarı sinif şagirdlərini, həm oğlanları, həm də qızları vərdişlərə təxminən eyni səviyyədə yiyələnməyə nail olmaqdan ibarətdir.

Aşağıdakı strukturlar diqqət mərkəzində dayanır: Same-Different (eyni-fərqli), Think-Pair-Square-Share (düşün, tərəf müqabilinlə, sonra dörd nəfərdən ibarət qrupla müzakirə et və öz təəssüratlarını, düşündüklərini, rəyini siniflə bölüş), Numbered Heads Together (nömrə alaraq bir-birininizin arxasında dayanın Roundrobin (Roundtable (növbə ilə öz fikrini bildir), Fact or Fiction и Guess the Fib (fakt, yaxud fiksiya və uydurmanı tap) (2).

Yuxarıda qeyd olunan strukturların hər birinə ayrı-ayrılıqda diqqət yetirək.

***1. "Same-Different" strukturu.*** İngilis dili müəllimi yuxarı sinif şagirdləri qarşısında imitativ xarakterli vəzifə (tapşırıq) qoyur və cümləni deyir:

I addım. Cümlənin məzmunu vəziyyətə uyğun gəlirsə, təhsillalanlar başlarını tərpətməklə bunu təsdiq edirlər, sonra hər biri sakitcə cümləni təkrar edir; əşər cümlə vəziyyətə uyğun deyilsə, onlar yenə başları ilə bunu bildirirlər, həmin cümlə təkrar edilmir.

II addım. Müəllim qrupu elan edir. Məktəblilər hamısı bir yerdə cavab verirlər.

XI sinfin "English" dili dərsliyində (Student's Book for the 11 th grade) 6-cı bölməyə daxil olan ikinci mövzu "Main Attractions of World" adlanır. Həmin mövzu üzrə haqqında danışılam strukturun ("Same-Different") məlumatlarını nəzərdən keçirmək olar.

Məktəblilər ötən dərsdə ("Attractiive Places") yeni qrammatik materialın (revision of the degrees of adjectives) öyrənilməsi zamanı fəallıq göstərmişlər. İlk növbədə sifətin dərəcələr (the degrees of adjectives) yada salınır:

Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də sifətlər mənaca iki qrupa bölünür:

1) əsli sifətlər: big short, long, nice, beautiful, deep, thin, wide,

2) nisbi sifətlər: golden, woolen, wooden, silken, Chinese, Italian

Əsli sifətlər əşyaların rəngini, formasını, əqli və fiziki keyfiyyətlərini və s. bildirir: (1) a **red** pencil, a **yellow** leaf, a **black** suit,

a **green** car (2) a **round** table, a **large** forehead, an **oval** face, a **slender** figure (3) a **clever** boy, **a capable pupil, a talented** painter, **a skilled** worker (4) a **strong** man, a **healthy** child, a **week** body, a **tiny** bird.

-İngilis dilinə əsli sifətlərin dərəcələri üçdür: 1) adi dərəcə (the positiv degree); 2) müqayisə dərəcəsi (the comparative degree); 3) üstünlük dərəcəsi (the superlativr degree).

Müəllim:

-Nümunə gətirin.

- ***the positiv degree the comparative degree the superlativr degree***

big biger (the) bigest

small smaller (the) smallest

sad sader (the) saddest

tall taller (the) tallest

Müəllim: -Sifətlərin dərəcələri yalnız adi dərəcənin sonuna ***er***, yaxuz ***est*** artırmaqla düzəlir?

Şagird: - Xeyr. İki hecalı sifətlərin bir qisminin və çoxhecalı sifətlərin hamısının müqayisə dərəcəsi (*the comparative degree*) analitik yolla, başqa sözlə, sifətdən əvvəl ***more***, üstünlük dərəcəsi (the superlativr degree) isə, ***most*** s əlavə etməklə yaranır. Diqqət yetirək:

- ***the positiv degree the comparative degree (the) superlativr degree***

beautiful more beautiful (the) most beautiful

important more important (the) most important

Müəllim: -Keçən dərsdə qeyd etmişdik ki, elə sifətlər də vardır ki, onların dərəcə formaları suppletiv yolla, başqa sözlə, hər bir formada müxtəlif kökə malik sifət işlənir. Həmin sifətlərə nümunə göstərə bilərsinizmi?

Şagird:

- ***the positiv degree the comparative degree the superlativr degree***

good better (the) best

little less (the) least

Müəllim: - Çox sağ olun.

Müəllim "Main Attractions of World" mövzusu il bağlı aşağıdakı situasiyanı təklif edir:

-"Agree with me if the statement is true."

Mümkün cavablar:

-Lahij, one of ***the most*** picturesque and ancient human settlements in Azerbaijan Republic, is located within the Ismayilli Region. It was built in the $5^{th}$ century B.C. on the canyon of the river Girdmanchay.

-The Sultan Ahmad Mosque is ***more*** commonly known as the Blue Mosque because of the colour of titles inside the building.

- The Sultan Ahmad Mosque was designed by Sedefkar Mehmet Aga and the construction started in 1609 during the reign of Ahmed I.

-Hermitage Museum was founded in 1764 when Empress Catherine the Great acquired an impressive collection of paintings.

-The Great Barrier Reef is one of the world's ***largest*** coral reef system on our planet.

***2. "Think-Pair-Square-Share"nin quruluşu***.

Müəllim vəziyyətə aydınlıq gətirir və nitq (danışıq) üzrə tapşırığı elan edir.

I addım. Qrup üzvləri fərdi qaydada cavablarla bağlı məşvərət edirlər.

II addım. Məktəblilər cavabı tərəf müqabilinə deyir və onlar birlikdə ümumi qənaətə gəlir və düzgün cavabı müəllimə çatdırırlar.

III addım. Şagirdlər qrupda bir-birilə məsləhətləşir, cavabı müəyyənləşdirir, həmin cavabı elan etməyi yoldaşlarından birinə həvalə edirlər.

Fəaliyyətin belə növü şagirdlərdə maraq oyadır. Tədris prosesində yarış metoduna müraciət olunur. Qrupdakı məktəblilər daha tez bir zamanda düzgün cavabı tapmağa çalışırlar. Eyni zamanda kollektiv iş qrup üzvlərini sız birləşdirir, tərbiyənin kollektivdə, kollektiv vasitəsilə və kollektiv üçün prinsipinin həyata keçirilməsinə imkan və şərait yaradır.

**3. *"Numbered Heads Together" strukturu.***

Qrup üzvlərinin hər birinə nömrələr verilir. Müəllim situasiyanı və tapşırığın qarşısında dayanan vəzifələri elan edir. Sonra sual verir:

I addım. Qrup üzvləri pıçıltı ilə danışır, ümumi cavabı müəyyənləşdirməyə çalışırlar. Müəllim nömrəni deyərək və qrupu göstərir.

II addım. Müəllim hansı şagirdin nömrəsini demişdirsə, həmin məktəbli cavab verir.

**4.** "***Roundrobin (Roundtable)" strukturu.***

Reproduktiv xarakterli nitq (danışıq) tapşırığı verilir. Şagirdlər növbə ilə şifahi olaraq həmin tapşırığı yerinə yetirir, rəy mübadiləsi edir, vahid fikrə gəlir və bunu bildirirlər.

***5. "Fact or Fiction u Guess the Fib" strukturu.*** Müəllim reproduktiv tipli nitq (danı-

şıq) tapşırığı verir. Bu tapşırıq yerinə yetirilir. Qrupun ayrı-ayrı üzvləri növbə ilə cümləni səsləndirirlər. Dinləyən şəxslər fikir verirlər görsünlər ki, cümlə həqiqətə hansı dərəcədə uyğundur (Uyğun olduğu təqdirdə cümlə təkrar olunur). Cümlə həqiqətə uyğun gəlmədikdə hər bir məktəbli 2-3 cümlə səsləndirir. Cümlələrdən biri gerçəkliyi əks etdirmir. Qrup üzvləri yalnız həmin cümləni təkrarlayırlar.

Vərdişlərin təkmilləşdirilməsi mərhələsində işin qrup formasına üstünlük verilməlidir. Qrup forması xarici dilə, o cümlədən ingilis dilinə praktik yiyələnmə təliminin fəal üsulları qrupuna aiddir. Bu priyomun təlim prosesinə daxil edilməsi dialoji nitqin, monoloqun, monoloji ifadəetmənin təlimi məqsədinə, yaradıcı fəallığa, şagirdlərdə fikri müstəqil ifadə etmək bacarıq və vərdişlərinin formalaşmasına, ingilis dili vasitəsilə təhsil-tərbiyəyə nail olmağı təmin edir.

Qrup işinin çox müxtəlif formaları vardır. Eksperimentin gedişində faydalandığımız, səmərəliliyinə əmin olduğumuz bəzi formaları diqqət mərkəzinə gətirmək istərdik.

***Buzz groups*** - şagirdlər çox da böyük olmayan qruplarda birləşib onlara verilən tapşırığı yerinə yetirmək üçün üz-üzə dayanırlar (bu, 2-3 dəqiqə vaxt aparır).

Müəllim məktəblilərin işinə nəzarəti həyata keçirir. Qısa müzakirədən sonra qrup nümayəndəsi qrupun gəldiyi nəticə barədə məlumat verir. *Buzz groups*-da iş şagirdləri birləşdirir, onlar qrupun mənafeyini müdafiə edirlər. *Buzz groups* iş forması "Customs Differ" mövzusu üzrə işdə bizə zəruri kömək göstərdi, XI sinif şagirdlərində idrak marağı yaratdı. İdrak marağı da məktəblilərin idrak fəallığına yol açdı.

Yuxarı sinif şagirdləri oxunmuş mətnə əsaslanaraq müəllimin suallarına fəallıqla, müstəqil fikir yürütməklə cavab verdilər. Cavablar tam və düzgün idi. Bütün bunlar, təbii ki, işin təhsilalanların idrak fəaliyyətini stimullaşdırdığından, onlarda fənnə, ingilis dilinə maraq olduğunu göstərdi.

***Panals.*** Bu iş formasının tətbiqi zamanı müəllim bəzi şagirdləri seçərək ayırır. Həmin məktəblilər suallara cavab verməli olacaqlar. Qrupun digər üzvləri sual vermək üçün nəzərdə tutulur. Belə diskussiya oxunmuş mətn üzrə həyata keçirilə bilər. Diskussiyanın gedişində süjet, qəhrəmanlar və b. müzakirə olunur. Qrup işinin bu forması sual veriləcək şagirdlərin qabaqcadan hazırlanmasını tələbata çevirir. Sual verənlərdən ötrü kartoçkalar, sxemlər, anketlər tərtib edilir. Bütün bunlar müzakirə məntiqinin müdafiəsi üçün lazımdır.

***Panals*** iş forması imkan yaradır ki, şagirdlər öz bilik və bacarıqlarını nümayiş etdirə, nisbətən zəif şagirdlər isə öz auditiv qabiliyyətlərini inkişaf etdirə bilsinlər.

Qrup işinin bu formasını biz "Money Matters" mövzusu üzrə həyata keçirdik.

Diskussiya üç çox da böyük olmayan mətn əsasında aparıldı. Şagirdlər pulun xeyiri və zərəri barədə fikir yürütdülər (Functions: Talking about your money spending habits). Üç məktəbli həmin şagirdlərin fikirləri ilə həmyaşıdlarını tanış etdilər. Digər şagirdlər sual verirdilər. Məsələn:

- *Do you like money?*

- Talk about your money spending habits"

- *What do you think about money?Why is money good? Why is money bad?*

Answers:

I'd say being obsessed with money over other things in life is bad. They're generally unhappy, whether they eventually become wealthy or not. Money is sure as hell important. Anyone who's broke will tell you that. But, it isn't a cure for unhappiness. It's just a tool that you can either control or can control you. It's not good or bad. The love of money over friends, family, and your overall health, however, is bad (Mən deyərdim ki, həyatda digər əşyalara nisbətən pula üstünlük vermək yaxşı hal deyil. Onlar varlı olacaqlar, olmayacaqlar, amma son nəticədə bədbəxtdirlər. Sözsüz pul lazımlıdır. Kim ki, ehtiyac içindədirsə o, bunu deyə bilər. Bu, sadəcə sizin nəzarət edə biləcəyiniz və yaxud nəzarət etdiyiniz alətdir. Bu, yaxşı, yaxud pis deyil Fəqət dostlar, ailə və sağlamlıqla müqayisədə pula həris olmaq ümumilikdə pisdir).

Diskussiyanın bütün iştirakçıları razı qaldılar. Hətta dərslərdə qeyri-fəallıq göstərən məktəblilər də fəal oldular.

***Opinion vote***. Hər bir şagird səsvermə üçün kartoçka alır (1 rəqəmindən 5 rəqəminədək: 1- taç razı deyiləm, 5 – tam razıyam). Müəllim tərəfindən irəli sürülmüş fikir müzakirə olunan kimi "lehinə" və "əleyhinə"lər yazılır.

Məktəblilər səs verirlər, Qaldırılan kartoçkalara əsasən müəllim ümumi vəziyyəti təsəvvürünə gətirir. Bu, yekunlaşdırmanın tez həyata keçirilməsinə, nəzərdən keçirilən mövzu üzrə nəticəyə gəlməyə kömək göstərir.

Müzakirəyə və səsverməyə *"Ways of treatment"* ("Müalicə üsulları") mövzusu da çıxarıla bilər.

- *What is good for your brain?*

- *What can give you energy?*

-*Water helps your body in many ways. Doesn't it?*

***Onion.*** İki qrupun şagirdləri iki dairə yaradırlar (bir dairə o birinin içərisində), məktəblilər üzlərini bir-birinə sarı çevirirlər. müəyyən müddət ərzində onlar müəllim tərəfindən təqdim edilmiş tapşırığı müzakirə edirlər. Yaxud sual verib, cavab alırlar. Müəllimin işarəsi ilə xaricdəki dairə sağa elə hərəkət edir ki, yeni cütlük meydana gəlir ki, müzakirəyə başlayır.

*Onion* iş forması hər hansı qrammatik struktur üzrə məşğələ üçün səmərəlidir. Belə ki, biz bu iş forması üzrə *"Cultural Awareness"* mövzusunu seçdik. Dairə üzrə hərəkət etməklə hər bir şagirdə sual verildi. Hər bir şagird də o biri şagirdlərə sual verdi. Beləliklə hər bir şagird ən azı 12-14 sual verdi, 12-14 suala cavab verdi. Bu tapşırıq sona yetəndə müəllim alınmış cavablar əsasında yığcam monoloji nitq hazırlamaq məqsədilə qrupa 1-2 dəqiqə vaxt ayırır.

*Onion* iş forması məktəblilərin xoşuna gəlmişdir. Çünki bu iş forması onlara öz bilik, bacarıq və vərdişlərini nümayiş etdirməyə şərait yaratmışdır.

İngilis dili üzrə autenik (əslinə uyğun) kommunikativyönümlü təlim iştirakçıların "informasiyaya malik olmada qeyri-bərabərliyi" (Information gap) nəzərdə tutan tapşırıqların tətbiqi ilə həyata keçirilir (6).

"Information gap" tipli tapşırıq müxtəlf formalarda ola bilər: : *picture gap* (təhsilalanlarda demək olar ki, eyni şəkillər olur, bəzi təsvirlər fərqlənir, fərqi isə, yoldaşının şəklinə baxmadan, sualların köməyi ilə tapmaq lazımdır - *matching task).*

Bu priyom *Past Progressive-in* işlənib hazırlanması zamanı tətbiq edilmişdir. Məktəblilər (cütlər) müxtəlif hərəkətləri edən insanların təsvirləri olan şəkilləri almışlar. Onlar *Past Progressive*-də olan sualları bir-birinə verərərk uyğunsuzluqları ayd;nlaşdırmalıdırlar.

text gap (şagirdlərdə anoloji mətnin, yaxud bu və ya digər mətnin fraqmentləri olmalıdır ki, bir şagirdin mətnində məsələ təfsilatı ilə öz əksini tapsın; digər mətntdə isə yox; informasiyadakı çatışmazlığı isə *-jig-saw reading* yerinə yetirsin).

Bu priyomdan *"Do you have any problems with your friends?"* mövzusu öyrənilərkən istifadə olunurdu.

knowledge gap (bir şagird o biri şagirdə məlum olmayan, informasiyaya malikdir, həmin informasiyanı восполнить lazımdır - *complete-the-table task);*

reasoning gap (şagirdlərin müxtəlif sübutları vardır, onları bir yerə toplamaq və сопоставить lazımdır);

belief/opinion gap (məktəblilərin qənaətlərində müxtəliflik var, onları bir nəticə, vahid fikir halına gətirmək lazımdır).

*"Information gap"* tipli tapşırığa ***"Treasure Island"*** ("Möcuzələr adası") kommunikativ oyunu nümunə ola bilər. İki ünsiyyət iştirakçısı ("dəfinə axtaranlar" "kimsə yaşamayan ada"nın təsviri olan lal xəritəyə malikdir. Bir iştirakçının xəritəsindəki məlumat ikinci iştirakçının xəritəsində yoxdur. İştirakçılar bir-birinə sual verərək çalışırlar ki, onları gözləyən təhlükəni aşkara çıxarsınlar, öz xəritələrindəki boş xanalarda təhlükənin müvafiq gözləntilərini qeyd edirlər. Nəticədə hər iki iştirakçının lal xəritəsində yeganə bir xana boş qalır. Bu elə "dəfinə"nın gizlədildiyi xanadır. İş cütlərlə aparılır. Dəfinəni birinci tapan cütlər qalib hesab olunur.

Dərs təlim-tərbiyə prosesinin başlıca həlqəsi olmuşdur və olmaqdadır. Əsas məsələ təlimin və şagirdlərin tərbiyəsinin əsas forması olmaq etibarilə onun səmərəliliyinin yüksəldilməsidir. Sinifdə mənəvi-psixoloji iqlimin necəliyi, şagirdlər tərəfindən mənəvi dəyərlərin və mənəvi normaların mənimsənilməsi, müəllim və şagirdlərin əhval-ruhiyyəsi, şagirdlərin psixoloji sağlamlığı, fərdi-yaradıcı inkişafının səviyyəsi dərsdə və dərsdən kənarda müəllimin şagirdlərlə ünsiyyətinin xarakterindən çox asılıdır.

Xarici dil, o cümlədən ingilis dili dərsinin keçirilməsinə qeyri-ənənəvi yanaşma öyrənilən fənnə idrak marağını artırır, məktəbliləri fəal əqli fəaliyyətə, müstəqil yaradıcılığa sövq edir.

Belə dərslərdə müəllimin yaradıcılığı ilə şagirdin yaradıcılığı qovuşur və səmərəliliyin rəhni olur. İngilis dili üzrə məşğələlərin səmərəliliyi şagirdlərin nitq bacarıqlarının səviyyəsini müəyyənləşdirməkdə müəllimə kömək edir.

**Problemin aktuallığı.** İngilis dilinin tədrisi prosesində şagirdlərdə idrak fəallığının inkişaf etdirilməsi problemi aktuallığı ilə seçilir. Digər fənlərlə müqayisədə ingilis dili dərslərində məktəblilərn idrak fəallığının formalaşdırılması problemi az tədqiq edilmişdir.

**Problemin yeniliyi.** İngilis dilinin tədrisi prosesində XI sinif şagirdlərində idrak fəallığının inkişaf etdirilməsi problemi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ingilis dilinin tədrisi metodikası sahəsində tədqiqat aparan şəxslər üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. Щукина, Г.И. Роль деятельности в учебном процессе: Кн. Для учителя. М.: Просвещение, 1986.
2. Копылова, В. В. Методика проектной работы на уроках английского языка: Методическое пособие. М.: Дрофа, 2004.
3. G. Guliyeva, Kh. Rustamova, G. Aslanova. English: Students book for 11 th grade. Bau: Kovsar, 2018.
4. O. Musayev. İngilid dilinin qrammatikası. Bakı: Maarif, 1979.
5. Kaushanskaya V.L., Kovner R.L., Kojevnikova O.N. A Grammar of the English Language. M.: Prosvesheniya, 1978.
6. Коменский, Я. А. Избранные педагогические сочинения. М., 1962. 2 т.

**E-mail**: gadimov0600@mail.ru
**Rəyçilər:** *ped.ü.elmlər dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəlsəfə dok.* **F.Ə. Rzayeva**
**Redaksiyaya daxil olub:** 11.12.2018